# Azərbaycanda xərçəng xəstəliyinin müalicəsi üçün bütün şərait yaradılıb

Nüvə Təbabəti Mərkəzində xərçəng xəstəliklərinin müalicəsi üçün bütün şərait yaradılıb.

Bunu Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktorunun müavini Dazhu Yanq jurnalistlərə müsahibəsində deyib.

Onun sözlərinə görə, Azərbaycan 2001-ci ildən Beynəlxalq Atom Enerjisi Agentliyi ilə əməkdaşlıq edir. Səhiyyə sahəsində nüvə texnologiyalarının tətbiq olunması barədə məlumat verən Dazhu Yanq vurğulayıb ki, Qafqazda ilk dəfə Nüvə Təbabəti Mərkəzinin Bakıda yaradılması Azərbaycan Respublikası Prezidentinin onkoloji xəstələrə diqqət və qayğısının bariz nümunəsidir.

***AZƏRTAC***